# Norveç Nobel Komitəsinə 20 Yanvar faciəsi ilə bağlı bəyanat ünvanlanıb

İsveçdə fəaliyyət göstərən "Qobustan-Azərbaycan Aydınlar Ocağı" dərnəyinin təşkilatçılığı ilə keçirilən "Qanlı 20 Yanvar" adlı videokonfransın yekununda Norveç Nobel Komitəsinə ünvanlanan bəyanat qəbul edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, sözügedən bəyanat videokonfransın 100-dən çox iştirakçısı - "Qobustan-Azərbaycan Aydınlar Ocağı"nın üzvləri, Azərbaycan diaspor fəalları, 20 Yanvar şəhidlərinin ailə üzvləri və veteranları tərəfindən Norveç Nobel Komitəsinin sədri Jorgen Vatne Frydnesə və komitənin üzvləri - Asle Tojeyə, Anne Engerə, Kristin Klemetə, Qry Larsenə ünvanlanıb.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçova 1990-cı ilin oktyabrında Norveç Nobel Komitəsi tərəfindən verilən Nobel Sülh Mükafatına etirazın yer aldığı bəyanatda 1990-cı il 20 Yanvar qətliamında əli Azərbaycan xalqının qanına bulaşmış Mixail Qorbaçova Nobel Sülh Mükafatının verilməsinin ədalətsiz qərar olduğu diqqətə çatdırılıb.

Sənəddə, həmçinin 20 Yanvar faciəsini törədən cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün kifayət qədər hüquqi əsasın olduğu bildirilib, onların BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın və digər beynəlxalq hüquqi konvensiyaların tələblərini pozduğu qeyd olunub. Bəyanatda dünya ictimaiyyətinin ədalətə inamı və Nobel Sülh Mükafatının mənəvi nüfuzunun güclənməsi baxımından Mixail Qorbaçovun bu mükafatdan məhrum olunmasının əhəmiyyəti vurğulanıb.


THE OPEN LETTER

TO THE NORWEGIAN NOBEL COMMITTEE

RESOLUTION

"Gobustan" – Association of Azerbaijani Academics in the Kingdom of Sweden

Organization number 802535-4005 — Mobile contact +46070464865C

83. Kamala Karimova
84. Nazim Rahimov
85. Nargila Mammadova
86. Arif Abbasov
87. Azima Agalar
88. Firdovsiyya Ahmadova
89. Afet İslam
90. Rüfana Soltanova
91. İrada Mammadova
92. Mübariz Göyüshoghlu
93. Banuchichek Kalbaliyeva
94. Natiqa Zeynalova
95. Sabina Zeynalova
96. Gültekin Mürsaliyeva
97. Tünzala Seyfullayeva
98. Samed Kangerli
99. Emilia Oman
100. Zaur Ustac

Azərbaycan. - 2025.- 31 yanvar (№ 21).- S.7.